**Zəhra Elnur İSMAYILOVA**
Azərbaycan Rəssamlıq Akademiyasının magistrı
E-mail: zahra.ismayils@mail.ru
ORCID ID: 0009-0008-4257-5124

# ZAHİD HÜSEYNOV. AZƏRBAYCANDA ƏNƏNƏVİ VƏ MÜASİR KERAMİKA SƏNƏTİ

**Xülasə**

XX əsrin əvvəllərindən başlayaraq, ölkəmizdə dekorativ-tətbiqi sənət növləri qədim ənənələrə sadiq qalaraq yeni inkişaf mərhələsinə başlayır. Müstəqillik dövründə görkəmli keramist rəssamlarımız arasında qədim rəmzi və fəlsəfi işarələrə, motivlərə xüsusi maraq var idi. Bu səbəblə, onlar öz yaradıcılığında bu təsvirlərə müraciət edirdilər. Həmin rəssamlardan biri də Zahid Hüseynov idi. Z.Hüseynov 1998-ci ildə Tbilisidə baş tutan keramika üzrə I Beynəlxalq Simpoziumda “Əsrin müqaviləsi” və “Yarıya bölünmüş alma” əsərinə görə qızıl medala layiq görülmüşdür. Bundan başqa o, “Tarixin yaddaşı” adlı kompozisiyası ilə ilin ən yaxşı işi üçün birinci mükafat-gümüş medala layiq görülmüşdür. Ustad 2002-ci ildə Gürcüstanda ucaldılmış “Tiflis 9 aprel 1989 - Bakı 20 yanvar 1990 ”-“Şəhid” əsərinə görə Gürcüstan Respublikasının şərəf ordeninə layiq görülüb. 2006-cı ildə isə “Azərbaycan Respublikasının Əməkdar rəssamı” fəxri adı ilə təltif edilmişdir. Z.Hüseynovun əsəsrlərinin bədii quruluşuna nəzər yetirsək fərqli üslubda və xüsusiyyətlərdə olduğunu müşahidə edilir. İlk öncə onu vurğulamaq lazımdır ki, Z.Hüseynov əsərlərinin əsas xüsusiyyətləri monumental, plastik keçidli, tam və bütöv görüntüyə sahib olmasıdır. Xalqın müdrik, rifah dolu yaşantısı Zahid Hüseynov üçün çox önəmli idi. Buna görə də əsərlərində mütləq şəkildə bu məsələlərin anlam və əhəmiyyətini qabardırdı. Z.Hüseynov yaradıcılığında xalqının milli dəyərlərini, mədəniyyətini, tarixini, kimliyini vurğulamışdır. Tariximizdə yaşanan və unudulmayan hadisələri sənət əsərləri ilə daha da unudulmaz etmişdir.

**Açar sözlər:** keramika, Zahid Hüseynov, dekorativ-tətbiqi sənət, rəmzi, Qobustan, Qoç.

**UOT:** 738:7.03
**JEL:** Z11, Z10, Z13
**DOI:** https://doi.org/10.54414/KCTC7079

## Giriş

Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biri kimi zəngin tarixi, etnik-mədəni irsi və yüksək estetik təfəkkürü ilə seçilir. Xalqın milli-mənəvi dəyərləri, mifoloji dünyagörüşü və bədii-estetik baxış sistemi əsrlər boyu müxtəlif sənət sahələrində, xüsusilə dekorativ-tətbiqi sənətdə öz dolğun ifadəsini tapmışdır. Bu baxımdan keramika sənəti həm maddi, həm də mənəvi mədəniyyətin daşıyıcısı kimi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın qədim dulusçuluq ənənələri, fiqurlu və zoomorf qabları, rəmzi ornamentləri və plastik ifadə vasitələri milli kimliyin formalaşmasında mühüm rol oynamışdır.

Keramika sənəti ümumbəşəri mədəniyyət kontekstində də geniş inkişaf yolu keçmiş, antik dövrdən etibarən müxtəlif coğrafiyalarda formalaşaraq müasir dövrdə yeni bədii axtarışlarla zənginləşmişdir. Azərbaycan keramika sənəti isə bu ümumi inkişaf xəttində həm ənənəyə bağlılığı, həm də yenilikçi yanaşmaları ilə fərqlənmişdir. Xüsusilə XX əsrdə milli incəsənətin ideya-məzmun və forma baxımından yenilənməsi, monumental və konseptual istiqamətlərin güclənməsi keramika sahəsində də özünü aydın şəkildə göstərmişdir.

Müstəqillik dövründə milli köklərə dönüş, etnoqrafik və mifoloji motivlərə marağın artması, qədim rəmzlərin müasir plastik həll vasitələri ilə təqdim olunması bədii keramikanın

inkişafında yeni mərhələ yaratmışdır. Bu mərhələnin parlaq nümayəndələrindən biri Zahid Hüseynovdur. Onun yaradıcılığı monumental düşüncə tərzi, milli-mifoloji motivlərə istinad, materialın təbiətini dərindən duyma və keramika ilə metalın sintezindən istifadə kimi xüsusiyyətləri ilə seçilir. Rəssamın əsərlərində Qobustan qayaüstü təsvirlərinin plastikası, qoç motivinin rəmzi semantikası, xalq məişəti və tarixi yaddaş mövzuları müasir bədii interpretasiyada təqdim olunur.

Zahid Hüseynovun yaradıcılığı Azərbaycan keramika sənətində ənənə və müasirliyin vəhdətini əks etdirən mühüm mərhələ kimi qiymətləndirilə bilər. Onun monumental pannoları, dekorativ heykəltəraşlıq nümunələri, konseptual kompozisiyaları və pedaqoji fəaliyyəti milli sənət məktəbinin formalaşmasına və inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Bu tədqiqatın əsas məqsədi Zahid Hüseynovun yaradıcılığını Azərbaycan bədii keramika sənətinin inkişaf kontekstində sistemli şəkildə təhlil etmək, onun əsərlərində ənənəvi motivlərin, mifoloji-rəmzi elementlərin və monumental plastikanın bədii həll xüsusiyyətlərini müəyyənləşdirməkdir. Eyni zamanda, sənətkarın material və texnika seçimi, keramika ilə metalın sintezi, konseptual yanaşma prinsipləri və milli kimlik məsələsinə münasibəti elmi əsaslarla araşdırılır. Tədqiqatın elmi yeniliyi və fərqli cəhətləri:

- Zahid Hüseynovun yaradıcılığı ilk dəfə olaraq milli-mifoloji rəmzlərin plastik interpretasiyası baxımından kompleks şəkildə təhlil edilir.
- Rəssamın Qobustan motivlərinə yanaşması qədim qayaüstü təsvirlərin müasir monumental keramika ilə əlaqəsi kontekstində araşdırılır.
- Keramika və metal materiallarının sintezinin bədii-estetik və konseptual mahiyyəti ayrıca tədqiq olunur.

Sənətkarın yaradıcılığı yalnız sənətşünaslıq aspektində deyil, həm də mədəni yaddaş, milli identiklik və simvolika baxımından şərh edilir.

**Qədim dövr keramika sənəti və onun XX yüzillikdə inkişaf istiqamətləri**

Dünyanın ən qədim və dərin tarixə, mədəniyyətə malik olan guşələrindən biri də Azərbaycandır. Xalqımızın milli-mənəvi dəyərləri, estetik zövqü, mifoloji tarixi, müxtəlif sənət növlərində fərqli üslublarda tətbiq edilmişdir. Demək olar ki, dünyanın ən qabaqcıl muzeylərində Azərbaycanın zəngin bədii sənət nümunələri nümayiş edilir. Bu sənət nümunələrinin arasında dekorativ-tətbiqi sənət əsərləri çoxluq təşkil edir. Dekorativ-tətbiqi sənət yəni xalq sənəti, məişət və bədii xüsusiyyətlərin toplusudur. Azərbaycanda dekorativ-tətbiqi sənət nümunələri ilk orta yüzilliklərdən başlayaraq öz inkişaf yolunu keçmişdir [1].

Peşəkar ustalıq tələb edən dekorativ-tətbiqi sənət nümunələrində ən qabaqcıl yeri bədii keramika sənəti tutur. Dünyanın bütün xalqlarında keramika sənəti böyük inkişaf yolu keçmiş və ənənəvi qaydada müasir dövrdə davam etdirilir. Təsadüfi deyil ki, keramik tipli məmulatlara aid termin yunan dilindən gəlir. Yunanlar keramika sahəsində əldə etdikləri bilikləri bütün Qərbi Aralıq dənizi bölgəsinə yaymışdılar. Roma İmperiyası Yunanıstanı öz hakimiyyəti altına aldıqdan sonra onlardan mənimsədiyi texnikaları Almaniyaya qədər yaymışdır. Həmin üslub və texnikalar müasir dövrdə də davam etdirilir [2].

Qədim dövr dulusçuluq sənətində fiqurlu keramikalar xüsusiyyətlərinə görə diqqət çəkir. Müxtəlif mənbələrdə deyilənə görə dulusçular fiqurlu qabların hazırlanmasında daha böyük uğurlar əldə etmişlər. E.ə. I minillikdə də öz inkişafını davam etdirən fiqurlu keramikalar daha çox zoomorf qablar formasında olmuşdur. Ənənəvi hesab edilən bu üslub müasir Azərbaycan keramika sənətində öz təkamülünün, inkişafının yüksəliş dövrünü yaşayır [1].

XX yüzillikdə Azərbaycan incəsənətinin bir çox sahələrində olduğu kimi keramika sənəti də milli, ənənəvi və bədii irsin zənginliyi, eyni zamanda dünya mədəniyyətinə istinad edərək novatorçu idealar ilə yüksək inkişaf mərhələsinə çatmışdır. Onu da qeyd etmək lazımdır ki, dövrün olduqca gərgin, mürəkkəb, dinamik siyasi və ictimai şəraiti zamanı irəliləyən milli incəsənətimizdə yüksək dəyişim və canlanma yaşanmışdır. Bu vəziyyətin ən əsas səbəbi cəmiyyətimizdə, xalqın ruhani, mənəvi hallarının və mədəniyyətin müxtəlif sahələrində vacib sayılan yeni tendensiyaların, fərqli zövqlərin yaranması ilə bağlı olmuşdur [3].

XX əsrin əvvəllərindən başlayaraq, ölkəmizdə dekorativ-tətbiqi sənət növləri qədim ənənələrə sadiq qalaraq yeni inkişaf mərhələsinə başlayır. Bu inkişaf mərhələsində keçmişdə olan idea, məzmun və texnikalara istinad edilsə də, yeni texnikalar, fikirlər və üslublar araşdırılır və bunun nəticəsində, peşəkar və yaradıcı ustalar, rəssamlar yetişdirilirdi [3].

Müstəqil Azərbaycanda müasir dövrün bədii keramika ustaları, rəssamları çoxluq təşkil edir. Mir Teymur Məmmədov, Zahid Hüseynov, Məzahir Avşar, Eldar Məmmədov, Şamo Abbasov və başqaları həmin rəssamlar sırasındadır. Bu rəssamlar 1970-1980-ci illərdə Moskva, Sankt-Peterburq, Tbilisi və başqa şəhərlərdə olan ali məktəblərdə təhsil almış və keramika üzrə mütəxəssis rəssamlara çevrilmişlər [3].

**Müasir dövr incəsənətində monumentallıq**

Daha çox heykəltaraşlıq, boyakarlıq, mozaika, keramika, vitraj, metal sənət növlərində rast gəldiyimiz monumentallığın ən əsas xüsusiyyəti, onun əzəmətli və plastik həlli ilə tamlığını qorumasıdır. Monumental incəsənət ilk dəfə ibtidai dövrdə yaranmış və sonralar dini heykəllərdə, təbiətdə, bağlarda geniş yayılmışdır. Qədim Misirdə bu sənətə aid nümunələr çoxluq təşkil edir. Memarlıqda, heykəllərdə və s. Monumental heykəltaraşlıq bu sahəyə olan marağı daha da artırıb. Belə demək olar ki, bu üslub heykəltaraşlıqla öz inkişaf yolunu keçmiş və müasir dövrə qədər gəlmişdir. Azərbaycanda dahi şəxsiyyətlərin heykəlləri məhz bu strukturda, üslubda hazırlanmışdır.

Monumental incəsənətə tariximizin ən qədim abidələrində, erkən insan yaradıcılığında rast gəlinir. Azərbaycanın uzun müddət Sovet İttifaqının tərkibində olması, dövrün reallıqlarının diktə etdiyi yeni şərait, eləcə də formalaşmış siyasi və ideoloji xətt müasir Azərbaycan monumental sənət ustalarını qədim bədii irslə çağdaş estetik nailiyyətlərin vəhdətini axtarmağa sövq etdi. Bu yaradıcı axtarışlar qısa zamanda mürəkkəb sənət problemlərinin həllində uğurlu üslub və ifadə vasitələrinin meydana çıxmasına gətirib çıxardı [4].

Adətən dərin ideya və məzmun daşıyan, ümumiləşdirilmiş və əzəmətli bədii formalarla reallaşdırılan plastik sənət nümunələri monumental əsər kimi qiymətləndirilir. Belə bir sintez sayəsində xatirə kompleksləri, memarlıq obyektlərini bəzəyən heykəltəraşlıq, rəngkarlıq və mozaika kompozisiyaları, vitrajlar, eləcə də şəhər meydanlarını zənginləşdirən heykəllər və fəvvarələr yadda qalan monumental sənət nümunələrinə çevrilir. İbtidai insanın yaradıcılığında kök salmış monumental sənət ənənəsi bu gün də inkişaf edərək müasir dövrümüzə qədər öz davamlılığını qoruyub saxlamışdır [4].

Müasir dövr incəsənətində monumentallıq geniş yayılmışdır. Dekorativ sənət nümunələrində də monumental əsərlər mövcuddur. Xüsusilə keramika və metal sənət növlərində daha çox rast gəlinir. Azərbaycanda bu üslubda çalışan çox saylı peşəkar rəssamlar var. Onlar monumentallığın qanunauyğunluqlarını öz əsərlərində əks etdirirlər [4].

**Zahid Hüseynov və yaradıcılığı**

Müstəqillik dövründə görkəmli keramist rəssamlarımız arasında qədim etnoslarımıza xas olan mifik, rəmzi və fəlsəfi işarələrə, motivlərə xüsusi maraq var idi. Bu səbəblə, onlar öz yaradıcılığında bu xüsusi anlam və əhəmiyyət kəsb edən təsvirlərə müraciət edirdilər [3]. Həmin rəssamlardan biri də Zahid Hüseynov idi. Azərbaycan keramika sənətinə böyük töhfələri olan və bu sahənin inkişafında əməklə, ustalıqla çalışan sənətkarımız Zahid Hüseynov yaradıcılığı monumental çalışmaları ilə yadda qalmışdır [3].

Görkəmli keramika ustası Zahid İsa oğlu Hüseynov 1945-ci il 20 mart tarixində Gürcüstanın Qaraçöp mahalının Tüllər kəndində dünyaya göz açmışdır. Z.Hüseynov orta məktibi kənddə bitirdikdən sonra rəssamlığa olan marağı ilə 1963-cü ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasına qəbul olmuşdur. Daha sonra o, 1965-ci ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasının "Monumental keramika" şöbəsinə daxil olur. Rəssam təhsil aldığı müddətdə dəyərli ustadlarla tanışlıq və onlardan qiymətli biliklər alma şansı qazanır. Bu sənətkarlar Rezo İoşvili, Alde Kakabadze və Qoqo Kartvelişvilidən dərs almışdır. Zahid Hüseynov göstərdiyi ciddiyyət və əməklər sayəsində keramika sahəsində daha çox sirləri öyrənir və yaradıcılığında tətbiq edirdi. 1970-ci ildə təhsilini başa vuran Z.Hüseynov Bakıya gəlir və burada çalışmağa, yaratmağa başlayır.

Zahid Hüseynov SSRİ və Azərbaycan Rəssamlar İttifaqının (1975) və Gürcüstan Rəssamlar İttifaqının (1998) fəxri üzvü olur. Z.Hüseynov 1998-ci ildə Tbilisidə baş tutan keramika üzrə I Beynəlxalq Simpoziumda "Əsrin müqaviləsi" və "Yarıya bölünmüş alma" əsərinə görə qızıl medala layiq görülmüşdür. Bundan başqa o, "Tarixin yaddaşı" adlı kompozisiyası ilə ilin ən yaxşı işi üçün birinci mükafat-gümüş medala layiq görülmüşdür [3]. Bu da rəssamın beynəlxalq səviyyədə uğurlar qazandığının sübutudur. Hətta rəssamın simpoziumda işlədiyi "Gürcü xoru" adlı əsəri Gürcüstan Rəssamlıq Akademiyasında saxlanılır. Z.Hüseynovun uğurları bununla bitmir. Ustad 2002-ci ildə Gürcüstanda ucaldılmış "Tiflis 9 aprel 1989 - Bakı 20 yanvar 1990 " – "Şəhid" əsərinə görə Gürcüstan Respublikasının şərəf ordeninə layiq görülüb. 2006-cı ildə isə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adı ilə təltif edilmişdir [3].

Zahid Hüseynov pedaqoji fəaliyyəti ilə də Azərbaycan incəsənətində yeni ustadlar yetişməsinə böyük töhfələr vermişdir. 40 ildən artıq pedaqoji fəaliyyəti olan Z.Hüseynov 1970-1980-ci illərdə 84 saylı texniki peşə məktəbində, 1980-2001-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, 2001-ci ildən etibarən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında peşəkar müəllim kimi tələbələr yetişdirmişdir [3].

Zahid Hüseynovun yaradıcılığı xüsusi anlamlar daşıyan, tariximizi, ənənələrimizi müasir sənət dünyasında yaşadaraq öz xüsusiliyini qoruyur. Onun əsərləri bir çox ölkələrdə nümayiş etdirilmişdir. Bu ölkələr sırasında keçmiş SSRİ-nin bir sıra respublikaları, Ruminya, Çexoslavakiya, Macarıstan, Almanya, İtalya, Türkiyə, Litva, Latviya və başqa xarici şəhərlər mövcuddur. Eyni zamanda onun monumental divar pannoları Çernobl, Moskva, Naftalan, Zaqulba, Yardımlı, Lənkaran, Astara, Ağcabədi və Cəbrayıl bölgələrində nümayiş etdirilir [3].

Z.Hüseynovun əəsrlərinin bədii quruluşuna nəzər yetirsək fərqli üslubda və xüsusiyyətlərdə olduğunu müşahidə edilir. İlk öncə onu vurğulamaq lazımdır ki, Z.Hüseynov əsərlərinin əsas xüsusiyyətləri monumental, plastik keçidli, tam və bütöv görüntüyə sahib olmasıdır. Bu detallar əsəri kiçik və ya böyük ölçülü olmasına baxmayaraq monumental görüntüsündən uzaqlaşdırmır. Bundan başqa həmin xüsusiyyətlər yaradılmış əsərin bədii tərəfləri ilə vəhdətdə olmalıdır və rəssamın əsərlərində bu nüansların da düzgün şəkildə yerinə yetirildiyini görürük. Z.Hüseynov yaradıcılığında xalqının milli dəyərlərini, mədəniyyətini, tarixini, kimliyini vurğulamışdır. Tariximizdə yaşanan və unudulmayan hadisələri sənət əsərləri ilə daha da unudulmaz etmişdir. Bu da onun yaradıcılığını daha da xüsusi edir [3].

Zahid Hüseynovun yaradıcılığında xüsusi diqqət çəkən və araşdırılmalı məqamlar mövcuddur. Rəssam həm daxili dünyası və hissləri ilə, həm də illərin zəhməti, təcrübəsi nəticəsində öz üslubunu tapmışdır. Onun əsərləri keçmişin izini, ənənələrimizi, milli ruhumuzu ifadə edir.

Tarixin izləri dedikdə, rəssamın Qobustan mövzusuna böyük maraqla yanaşdığını və öz yaradıcılığında xüsusi yer ayırdığını müşahidə edirik. Qədim dövrlərdən Qobustan qaya təsvirləri monumentallığın bir nümunəsi kimi nəzərə çarpır. Bu yerlərdə yaşamış sakinlərin yaşamından bir izdir [5]. Bu səbəblə də Qobustan qayalarının plastikası və üzərindəki təsvirlərin gil ilə yapılması estetik və texniki cəhətdən vəhdət təşkil edir. Bu da Z.Hüseynovun peşəkar istiqamət seçdiyini göstərir. "Qobustan qadını" (2000. h-20sm) əsəri estetik görüntüsü və plastikası ilə tam mənada qadın obrazına uyğundur. Maraqlısı budur ki, Zahid Hüseynov əsərlərində müəyyən qədər instalyasiyalara da yer verib. Məhz bu əsərində formada bir boş hissə yaratmış və həmin boşluğu uzun dəmir parçası ilə doldurmuşdur [3]. Beləliklə, burada keramika və metal materialının sintezi yaranmışdır. Bu da əsərə qeyri-adilik verir. Qobustan qayaüstü rəsmlərində qadın elementi əsasdır və ruzi-bərəkət, doğuran kimi rəmzi mənalar daşıyır. Qobustan qaya təsvirləri həm də rəmzi mənaya sahibdir. Zahid Hüseynov məhz rəmzi anlamlara xüsusi diqqət yetirir və əsərlərini çoxluqla bu istiqamətdə, bu baxış bucağında hazırlayır. Rəssamın keramikanın xüsusiyyətlərini yaxşı bildiyini onun yapma üsulundan, verdiyi plastik quruluşdan anlamaq olar. Belə ki, Z.Hüseynov materialın təbiətinə uyğun şəkildə çalışırdı. Onun dekorativ heykəltaraşlıq silsilə əsəri "Qobustanın əks-

sədası" adlanır. Bu silsilə əsərlər milli motivlərdən, xalq adətləri, xalq geyimlərindən təşkil edilmişdir. Burada qadın bədəni formasında işlənmiş müxtəlif qablar və çıraqlar hazırlanmışdı. Həmin nümunələr şamot materialı ilə yumuşaq xətlərin əyrimləri və cizgiləri ilə bəzədilmişdir. Nəzərə alsaq ki, üzərində çalışılan nümunələr olduğu vəziyyətdə belə xüsusi dekorativlik daşıyır, rəssam burada həmin dekorativliyi və materialı duymuş və əsərdə bütün bunları əks etdirmişdir [5].

Z.Hüseynovun Qobustanla bağlı bir digər əsəri "Ox atan" adlanır. Bu əsərin əsas xüsusiyyəti metaldan olmasıdır. Əsərin ideası Qobustan qaya təsvirləri üzərində olan ov səhnələri ilə bağlıdır [3].

Zahid Hüseynovun milli dəyərlərə, adət və ənənələrə olan marağını bir digər əsərində də müşahidə edirik. Bu əsərin adı "Xurcun nar ilə" adlanır. Müəllif bu əsərində Azərbaycan xalçaçılıq sənətini, estetikasını, milli kimliyini nümayiş etdirmişdir. Xurcunun üzərində olan ornamentlər, onların rəng həlli xüsusi incəliklə işlənmişdir. Bundan başqa xurcunun plastikası və daxilində narların yerləşdirilməsi kompozisiyaya xüsusi maraq qatmışdır [5].

XX əsr dünya incəsənətində konseptual sənətin inkişaf dövründə, əlbəttə ki, Azərbaycan sənətkarları da bu inkişafdan geri qalmırdı. Geniş diapazonlu rəssam Zahid Hüseynovun əsərlərində konseptual sənətin izləri var. Belə ki, 1941-1945-ci illərdə Lənkaranda həlak olan insanların xatirəsini əbədiləşdirmək üçün 9 abidə yaratmışdır. Bu abidələrdə metal ilə keramikanın sintezini və müəyyən qədər milli motivlərimizdən istifadə etmişdir [5].

1980-1990-cı illərdə Zahid Hüseynovun yaradıcılığında daha da kamilləşdiyi bir dövr idi. Z.Hüseynovun sərhədsiz ideaları, güclü hissiyatı və geniş fantaziya sahibi olması monumental keramika sənətində böyük uğurlar qazanmasına səbəb olurdu [5]. Bu sərhədsiz sənətin bəhrələrindən biri də Yardımlıda olan "Əliyar" bulağının bədii tərtibatı idi. Müəllif burada xüsusi incəliklə mozaika və dulusçuluq sənətinin vəhdətini yaratmışdır. Kompozisiyanın bədii həlli, rəng tərtibatı mövzunun dərinliyini və əhəmiyyətini tamaşaçıya aydın şəkildə ötürür. Pannoda əks olunmuş süjetdə obrazın ifadəliliyi tamamlanmışdır. Rənglər isə gözoxşayandır. Qırmızı, ağ, mavi, tünd göy, narıncı və başqa rənglər. Pannonun kompozisiyası kənd əhalisinə ithaf edilmişdi. Əsasən kənd əhalisinin əhval ruhiyyəsində yaşamına uyğun idi. Bu əsərin əsas mahiyyəti öz zəhməti, əməyi ilə yaşayan və bununla qürur duyan azad, xoşbəxt kənd insanları idi [5].

Xalqın müdrik, rifah dolu yaşantısı Zahid Hüseynov üçün çox önəmli idi. Bu səbəbdən də əsərlərində mütləq şəkildə bu məsələlərin anlam və əhəmiyyətini qabardırdı. İnsanlara səsini belə duyururdu. Bu mövzular rəssamın yaradıcılığının dəst-xətti idi. Bütün bunlar "Azadlıq", "Qız üzülmə", "Ana və uşaq" pannolarında görmək mümkündür. Z.Hüseynov "Azadlıq" pannosunu Mərdəkanda İnternat məktəbində işləmişdir. Bu panno "Qoy həmişə sülh olsun!" şüarı əsasında hazırlanmışdır. Nəzərə alsaq ki, anasız, atasız qalmış, kökünü, yuvasını bilməyən və həyata sərt şəkildə başlamış uşaqlar üçün bu əsər ruhlandırıcı idi. Rəssam bu pannonu uşaqların həyata baxış tərzində ərsəyə gətirmişdi [5].

1988-ci ildə Azərbaycan monumental sənətinin birinci respublika sərgisində Zahid Hüseynovun "Göyərçinlər" əsəri nümayiş edilmişdi. Bu əsər şamotdan hazırlanmışdı və Gənclik istirahət evinin qarşısında qoyulmuşdu. Müəllif bu əsəri qitələrə uyğun hazırlamışdı. Əsərin rəngləri məharətlə seçilmişdi və hər qitəyə məxsus rəng ahəngdarlığı vardı. Kompozisiyada ritm və rənglər, əsərin yerləşdirildiyi məkanla vəhdətdə idi və istirahət evinin binasının forması, park və dəniz ilə yumuşaq keçid vardı [5].

Zahid Hüseynov keramika ilə yanaşı metal sənəti ilə də məşğul olur. Metal üzərində döymə üsulundan istifadə edirdi. Bu sahədə də peşəkarlığı ilə tanınırdı. Bir sıra əsərlərində bu üsul və materialdan istifadə etmişdi. Həmin əsərlərə "Xəzər haqqında mahnı", "Beşlik" kompozisiyası, "Rəqqasə", "Dənizçilər", "Mübarizələr", "Qız nar ilə", "Akvraiumda məhəbbət" və.s aiddir [4, s.39].

Keramika sənəti ümumilikdə çox zəhmətli bir sahədir. Bu sahədə çalışmaq və yüksəlmək də olduqca çətindir. Zahid müəllim bu sənətə böyük əmək sərf edib. Bu məqamda onun bu fikrini bildirmək yerinə düşər: "Keramika – gil, alov və sənətkar əlidir. Gil elə şeydir ki, əvvəlcə gərək ona alışasan, dilini biləsən ki, o da sənə

qulaq assın, əlində istədiyin hala düşsün. Alov kortəbii, amansız bir şeydir, ancaq gözəldir" [5].

Zahid Hüseynovun "Yadplanetlilər" adlı mücərrəd obrazlı əsəri qeyri-adi quruluşu ilə diqqət çəkir. Əsərin texniki tərtibatında mis oksidləri, şirələr və şamot tərkibli gildən istifadə edilmişdir [3]. Monumental quruluşlu əsərdə obrazların baş hissəsində "U" işarəsi verilib. Burada təkrarən rəssamın rəmzlərə olan marağını müşahidə edirik. Fikrimcə bu rəmz ilk orta yüzillikdə Ağdam rayonun Boyəhmədli kəndində tapılmış daş heykəl üzərində olan işarə ilə eynilik təşkil edir [1]. Müəllifin bu rəmzdən istifadə etdiyi bir digər əsəri "Tarixin yaddaşı" adlanır. Bu əsərin quruluşu həmin daş heykələ bənzəyir və əsərə daxil olan digər parçaların üzərində Qobustan qaya təsvirləri mövcuddur. Bu cür əsərlərin hazırlanmasında tədqiqi işlərin aparılması da vacibdir. Görünür ki, rəssam tədqiqi tərəfdən də araşdırmalar etmişdir və bu əsərlər də bu işlərin bəhrəsidir [3].

Zahid Hüseynov hər zaman qədim ənənələrə sadiq qalaraq əsərlər yaradır. Onun bu dəyərlərə bağlılığının bir digər nümunə əsəri də "Ağ qoç" əsəridir. Bu əsər onun heykəltaraşlıq silsiləsinə aid monumental quruluşlu bir formadır. Müəllif bu əsərinin quruluşunu reallığa istinadla dekorativləşdirmişdir. Qoçun baş qismi real görüntüsünə uyğun şəkildə relyefli, buynuzları isə getdikcə burulmuşdur. Qoçun buynuzları və baş hissəsi bir-birinə uyğun şəkildə bütöv halda verilmişdir. Bundan başqa öz monumentallığını da qoruyur. Müxtəlif mənbələrdə bu buynuz kənardan monumental daş çiçəyə də bənzədilir. Əsərdə diqqət çəkən dekor elementlərindən biri də qoçun boyun hissəsində verilmişdir. Bir çox monumental əsərlərində şamotdan istifadə edən rəssam, bu əsərində də şamotdan istifadə etmişdir. Bu material hazırlanan keramik məmulatları daha da keyfiyyətli edir [3].

Qobustan silsilə əsərlərində olduğu kimi, sənətkarın qoçla bağlı olan əsərləri də az deyil. Qoç formasında olan dekorativ qab səməni göyərtmək üçün nəzərdə tutulub. Qoç Azərbaycan tarixində rastladığımız bir fiqurdur. Bolluğun, bərəkətin rəmzidir. Rəssam məhz bu məqsədlə Novruz bayramı üçün belə bir qab hazırlamışdır [5].

Dekorativ-tətbiqi sənətdə dulusçuluq deyəndə ilk ağla gələn müxtəlif qablardır. Zahid Hüseynovun yaradıcılığında iki monumental quruluşlu vaza əsərləri də var. Bu əsərlər də onun iki silsiləsinə uyğun gəlir "Qoç" və "Qobustan" mövzuları. Birinci vaza əsəri "Vaza-Qoçlu" adlanır. Bu əsərin də materialında şamot və rəngli şirələr mövcuddur. Vazanın bədii quruluşunda daha çox nəbati ornamentlərdən istifadə edilmişdir. Eyni zamanda qoç təsvirləri də verilib. Bu təsvirlər və naxışlar haşiyələrin daxilində verilmişdir. Böyük haşiyə daxilində buynuzları içə doğru burulmuş qoç təsvirləri, kiçik haşiyələrdə isə dairələr, xəttlər və müxtəlif bəzəklər təsvir edilib. Bunlar arasında diqqət çəkən bir nüans vazanın baş hissəsindəki elementlərin qoç buynuzuna bənzəməsidir. Rəssam burada maraqlı bir görüntü yaradıb. Elementlər və təsvirlər ağ və qara rəngə boyanıb lakin vaza qırmızı kərpic rəngindədir. Zahid Hüseynovun digər Vaza əsəri ilkin quruluşuna görə deyil, üzərindəki təsvirlərə görə digər vazadan fərqlənir. Bu əsərin üzərindəki təsvirlər Qobustan qayaları üzərində olan insan təsvirlərinə bənzəyir. Sanki həmin təsvirlərin başqa formada stilizə edilmiş formasıdır. Bundan başqa bu vazada iki haşiyə vardır və onların daxilində insan təsvirləri ilə yanaşı heyvan və ağac təsvirləri, dairə və xətlər də verilib. Vazanın yuxarı hissəsində xalça elementləri təsvir edilib. Bu vaza əsərində də digər vaza ilə eyni rənglər və materiallardan istifadə edilib [3].

Beləliklə, Azərbaycanın bədii keramika sənəti çoxəsirlik yol qət etmiş və XX əsrdə də öz inkişafını davam etdirmişdir. Bu zaman daxilində görkəmli və peşəkar rəssamlar, ustalar yetişmişdir. Müasir Azərbaycan incəsənətində yeni era, yeni sənət nümunələri yaranmışdır. Burada əsas məsələ həmin sənətkarların ənənələrə, milli dəyərlərə və tariximizə sadiq qalaraq müasir uslubda və texnikada möhtəşəm yaradıcılıq nümunələri yaratmalarıdır. Zahid Hüseynov da bu sahədə ən qabaqcıl rəssamlardan biridir.

**Nəticə**

Azərbaycan dekorativ-tətbiqi sənəti, xüsusilə də bədii keramika, minilliklər boyu forma-

laşmış milli-estetik yaddaşın daşıyıcısı kimi yalnız məişət mədəniyyətini deyil, xalqın dünyagörüşünü, mifoloji təfəkkürünü və tarixi təcrübəsini özündə cəmləşdirir. Bu sənət sahəsi ənənə ilə yeniliyin dialoqu üzərində qurularaq, hər dövrdə dəyişən ictimai-siyasi və mədəni mühitə uyğun şəkildə inkişaf etmiş, XX əsrdə isə peşəkar bədii düşüncə səviyyəsinə yüksəlmişdir. Tədqiqatdan aydın olur ki, XX əsrin ikinci yarısından etibarən Azərbaycan keramika sənəti yalnız dekorativ funksiya ilə kifayətlənməyərək monumental və konseptual məzmun qazanmış, milli simvolika və arxaik motivlər müasir plastik həllərlə sintez olunmuşdur. Bu prosesdə fərdi yaradıcılıq üslubuna malik sənətkarların fəaliyyəti həlledici rol oynamışdır. Onların arasında Zahid Hüseynov yaradıcılığı xüsusi yer tutur.

Zahid Hüseynovun əsərləri sübut edir ki, keramika yalnız material və texnika məsələsi deyil, eyni zamanda fəlsəfi düşüncə, tarixi yaddaş və rəmzi dil məsələsidir. Onun yaradıcılığında Qobustan qayaüstü təsvirləri, zoomorf fiqurlar, qadın və ana obrazları, bolluq və bərəkət rəmzləri milli identikliyin bədii kodları kimi çıxış edir. Rəssamın keramika ilə metalı sintez etməsi, monumental ölçü və formaya üstünlük verməsi Azərbaycan bədii keramika sənətinin ifadə imkanlarını genişləndirmiş, onu beynəlxalq bədii kontekstdə tanıtmışdır. Zahid Hüseynov yaradıcılığı təkcə fərdi sənət yolu deyil, bütövlükdə müasir Azərbaycan bədii keramika məktəbinin formalaşmasında strateji mərhələ kimi qiymətləndirilməlidirır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Əfəndiyev R.. Azərbaycan İncəsənəti. Bakı, 2007.
2. Arcasoy A., Başkırkan H. Seramik Teknolojisi. Türkiye. 2021.
3. Şükürova N. Müstəqillik Dövrü Azərbaycan Keramikasında Ənənə və Müasirlik. Bakı. 2024.
4. Ələkbərov E. XX əsr Azərbaycan memarlıq abidələrində monumental bədii keramika nümunələri. Musiqi dünyası jurnalı, 2019;2(79): 8123–8128.
5. Aslanova A. Müasir Azərbaycan Keramikası. (dis:17.00.04). Bakı. 2004.

**Zahra Elnur ISMAYILOVA**
Master's student at the Azerbaijan State Academy of Fine Arts

## ZAHİD HUSEYNOV. TRADITIONAL AND CONTEMPORARY CERAMIC ART IN AZERBAIJAN

### Summary

An article about the style of traditional and contemporary ceramic art in Azerbaijan, the creativity and works of Zahid Huseynov. Analysis of Z. Huseynov's works and a study of the themes he addressed. Beginning from the early 20th century, decorative and applied arts in our country entered a new stage of development while remaining faithful to ancient traditions. During the period of independence, there was a particular interest among our prominent ceramic artists in ancient symbolic and philosophical signs and motifs. For this reason, they frequently turned to these images in their creative work. One of these artists was Zahid Huseynov. In 1998, at the First International Ceramics Symposium held in Tbilisi, Z. Huseynov was awarded a gold medal for his works "Contract of the Century" and "The Apple Divided in Half." In addition, his composition "Memory of History" received the first prize — a silver medal — for the best work of the year. In 2002, for the monument "Tbilisi, April 9, 1989 – Baku, January 20, 1990" ("Martyr"), erected in Georgia, the master was awarded the Order of Honor of the Republic of Georgia. In 2006, he was granted the honorary title of "Honored Artist of the Republic of Azerbaijan."If we examine the artistic structure of Z. Huseynov's works, we can observe that they differ in style and characteristics. First of all, it should be emphasized that the main features of his works are monumentality, plastic expressiveness, and a complete, unified visual form. The wise and prosperous life of the people was of great importance to

Zahid Huseynov. Therefore, in his works he consistently emphasized the meaning and significance of these themes. In his creativity, Z. Huseynov highlighted the national values, culture, history, and identity of his people. The events experienced in our history and never forgotten were made even more memorable through his works of art.

**Keywords**: ceramics, Zahid Huseynov, decorative and applied arts, symbolism, Gobustan, ram.

**Захра Эльнур ИСМАЙЛОВА**
Магистрант Азербайджанской Государственной Академии Художеств

## ЗАХИД ГУСЕЙНОВ. ТРАДИЦИОННОЕ И СОВРЕМЕННОЕ КЕРАМИЧЕСКОЕ ИСКУССТВО В АЗЕРБАЙДЖАНЕ

### Резюме

Статья о стиле традиционного и современного керамического искусства в Азербайджане, о творчестве и произведениях Захида Гусейнова. Анализ произведений З. Гусейнова и исследование тем, к которым он обращался. Начиная с начала XX века, в нашей стране декоративно-прикладное искусство, сохраняя верность древним традициям, вступило в новый этап развития. В период независимости среди выдающихся художников-керамистов наблюдался особый интерес к древним символическим и философским знакам, мотивам. По этой причине они обращались к данным образам в своём творчестве. Одним из таких художников был Захид Гусейнов. З. Гусейнов в 1998 году на I Международном симпозиуме по керамике, состоявшемся в Тбилиси, был удостоен золотой медали за произведения «Контракт века» и «Разделённое пополам яблоко». Кроме того, за композицию «Память истории» он получил первую премию — серебряную медаль как за лучшую работу года. В 2002 году за произведение «Тбилиси 9 апреля 1989 — Баку 20 января 1990» («Шехид»), установленное в Грузии, мастер был награждён Почётным орденом Республики Грузия. В 2006 году ему было присвоено почётное звание «Заслуженный художник Азербайджанской Республики». Если обратить внимание на художественную структуру произведений З. Гусейнова, можно заметить их разнообразие по стилю и особенностям. Прежде всего следует подчеркнуть, что основными чертами его работ являются монументальность, пластическая выразительность, цельность и завершённость образа. Мудрая и благополучная жизнь народа имела для Захида Гусейнова особое значение. Поэтому в своих произведениях он обязательно подчёркивал смысл и значимость этих тем. В своём творчестве З. Гусейнов акцентировал национальные ценности, культуру, историю и идентичность своего народа. События, пережитые в нашей истории и оставшиеся в памяти, он делал ещё более незабываемыми посредством своих произведений искусства.

**Ключевые слова**: керамика, Захид Гусейнов, декоративно-прикладное искусство, символика, Гобустан, баран.

**Daxil olub:** 26.02.2026